# Ümid və dəyişiklik



pravda.ru

Mail @pravda.ru | Register Now!

Russia | World | Society | Science | Incidents | Opinion | Business | Photo | Advertising | sections

■ World » Americas

## Hope and change

22.12.2014

*By Harun Yahya*

Politicians always emerge with new promises and make people believe they are different than their predecessors. Usually, however, the voters are cognizant that there will not be much difference with the newly elected politicians. Yet, with the strong feeling of hope and desire to meet their expectations and to have a better quality life, they vote for the new candidates.

The US President Obama is, of course, no exception to the other politicians who are elected making a lot of promises but do very little to accomplish them when reality sets in. He carried out a campaign to make Americans believe he will make a change and named his campaign "hope and change". This made many people hopeful of a new administration from the very beginning. He had another advantage among the candidates, he was going to be the first African-American President. Many Americans voted just because they considered his election in terms of having a significant symbolic value. Some of Obama's unfulfilled promises include the total withdrawal of the American troops from Afghanistan, and the shutdown of Guantanamo Bay. It has been six years and American troops are still in Afghanistan, and Guantanamo Bay is still open.

Print version

Font Size

Send to friend

■ Popular

- Hope and change
- Elena Bondarenko denounces criminal policy by Ukraine
- Cuba, the USA, Operation Mongoose and the Sirens Song
- China to receive Russian S-400 systems in exchange for political support
- South Stream to split Europe
- It was Ukraine that attacked Russia, China believes
- CIA files: Can pigs fly?
- For India, USA and Russia are good friends
- Al-Qaedas game changer
- EU lashes itself as Russia shuts down South Stream
- Russia and Turkey can save EU from economic recession
- Senator Richard Black: The Congress of the United States has never declared Syria to be our enemy
- Turkey will not leave Russia alone
- Sydney: The appearance of Lone Wolf Terrorism?
- World no longer has single power to make decisions for everyone
- CIA torture report: Tragedy for America
- Women Must Be Partners and Drivers of Climate Change Decision-Making
- Democratising the Media in Ecuador: Interview with Ecuadors Carlos Ochoa
- US not Pro-Nazi, just Anti-Christian
- Tony Blair, Infanticide Endorser is rewarded by Save The Children
- USA makes France look like Washingtons bootlicker
- US justice system miscarries nicely
- Will Germany attack Russia again?

■ Video

Russia works on non-nuclear response to aggression

The collapse of the Russian ruble

Glory to Ukraine's shadow government!

■ Business

Collapse of US shale oil production can save Russian economy

Europe and Gazprom change structure of cooperation

Europe's hope to gas Russia fails

The truth behind the Swiss

Siyasətçilər hər zaman yeni vədlərlə ortaya çıxırlar və bəziləri də insanları özlərindən əvvəlki siyasətçilərdən fərqli olduqlarına inandırırlar. Əslində səs verənlər də bu yeni seçilən siyasətçilərin əksəriyyətinin elə də fərqli olmayacaqlarını bilirlər. Yenə də istəklərini qarşılamaları və daha keyfiyyətli həyata sahib olmaq uğrunda dərin ümidləri səbəbindən bu yeni namizədlərə səs verirlər.

Amerika prezidenti Obama da bir çox vədlər verən digər siyasətçilər qarşısında istisnalıq təşkil etmir və o da vədlərini yerinə yetirmək üçün çox şey edə bilmir. Obama amerikalıları dəyişiklik yaradacağına inandırmaq üçün kompaniya həyata keçirdi və kompaniyasına "ümid və dəyişiklik" adını verdi. Bu kompaniya bir çox insanı rəhbərliklə əlaqədar olaraq ümidləndirdi. Digər namizədlər içərisində Obamanın başqa üstünlüyü də vardı, ilk zənci Amerika prezidenti olacaqdı. Bir çox amerikalı da onun seçilməsinin əhəmiyyətli bir simvolik dəyəri olacağını düşünərək Obamaya və əslində, yerinə yetirilməyən vədlərinə səs verdi.

Obamanın yerinə yetirilməyən vədlərinə nümunə olaraq Amerikan birliklərinin Əfqanıstandan çəkilməsi və Quantanamo həbsxanasının bağlanılması verilə bilər. Altı il oldu, ancaq Amerika birlikləri hələ də Əfqanıstandadır və Quantanamo hələ də açıqdır...

Səlahiyyət müddətinin 6-cı ilində Obamanın xarici siyasəti bir çox analitiklərin sərt tənqidlərinin də hədəfi oldu. Bir çox insan, xüsusilə, Yaxın Şərq siyasəti baxımından vədlərini yerinə yetirə bilmədiyinə inanır. Suriyadakı dəyişən siyasətləri, İŞİD-ə qarşı hərəkətə keçməyə gecikməsi və Yaxın Şərqdəki müsbət yöndə fəaliyyət çatışmazlığı bir çox siyasətçini narahat edir.

Obamanın insansız hava vasitələri və nəzarət proqramları ilə əlaqəli siyasətləri də müvəffəqiyyətsizliyə məruz qaldı və konqresdə dəfələrlə müzakirə mövzusuna çevrildi. 2014-cü il noyabr ayındakı ara seçkilərin ardınca respublikaçılar konqresin idarəsini ələ keçirdilər. GOP həm Senatoya, həm də Məclisə nəzarət edir və Obamanın Yaxın Şərqlə əlaqəli münasibətinə respublikaçılar olduqca tənqidi yanaşırlar. Bu səbəbdən Obama xarici siyasətlə bağlı qərarlarına qarşı qanuni aktlarını həyata keçirərkən daha çətin bir dövr keçirəcəyi görünür. Obama önümüzdəki iki il içərisində respublikaçıların qaydalarında dəyişiklik etmək məcburiyyətində qalacaq. Respublikaçıların idarəsindəki konqres böyük ehtimalla Obamanı İŞİD-ə qarşı fəaliyyətlərin həcmini genişləndirməyə məcbur edəcək.

Konqresdəki bir çox insan sadəcə hava hücumları strategiyasından istifadə etməyin İŞİD-in gücünü qırmaq üçün yetərli olmayacağına, hava gücü ilə birlikdə qurudan da mübarizə aparmaqla daha təsirli nəticə alınacağına inanır. Obama isə İŞİD-ə qarşı quru hərəkatında iştirak etmək üçün Amerikan birliklərini göndərməməkdə israr edir və yalnız İraq ordusu və Suriyalı müxalif qruplarını təlimləndirmək üçün Amerikalı hərbi məsləhətçiləri göndərməyə qərar verdi. Bundan əlavə rəhbərlik onları İŞİD-ə qarşı mübarizədə döyüş sursatı ilə təmin edəcək. Əlavə olaraq rəhbərlik və Obama Yaxın Şərqdə koalisiyaya üzv olan dövlətlərin İŞİD-ə qarşı qurudan müharibə aparmağı öhdələrinə götürmələrini və Amerikan birliklərinin yerinə quru hərbi qüvvələrindən istifadə etmək istəyir. Bu, rəhbərliyin milli zərər görmək istəmədiyi, ancaq vəkil ordulara dəstək olmaq yolunu seçdiyi mənasını verir. Kobanidəki Peşmərgə bunun əsas nümunəsidir. Bununla yanaşı, koalisiyaya üzv dövlətlər də əsgərlərinin öldürülməsini istəmir. Əlbəttə ki, bir insanın belə öldürülməsi qəbul edilə bilməz, əsas olan problemin sülh yolu, diplomatik cəhdlərlə həll edilməsidir.

Son günlərin siyasi müzakirələrindən biri də Türkiyə sərhədindəki hadisələri ehtiva edir və Suriya və İraq mövzusunda Türkiyənin mənfəətlərini maraqlandırır. Amerika ən kritik müttəfiqlərindən biri olan Türkiyəni İŞİD-ə qarşı fəaliyyət göstərilməsi mövzusunda razı salmaqda çətinlik çəkir. Həmçinin Amerikanın Yaxın Şərqdəki siyasəti Suriyadakı müttəfiqləri də narahat edir, çünki Amerika Kobanidə İŞİD-ə qarşı əməliyyatlarını davam etdirərkən Əsəd rejimi də içində uşaqların da olduğu bir çox vətəndaşın ölümünə səbəb olan misket bombalarını müxalifətin nəzarətində olan torpaqlara yağdırmağa davam edir. Məsələn, rejim oktyabr sonunda 36 saat ərzində 200 hava gücü vuruşu reallaşdırdı.

Obamanın rəhbərliyində ən bariz səhvlərdən biri də Çak Haqlın (Chuck Hagel) məcburi istefası oldu. 2013-ci ildən bu yana Müdafiə Naziri olan Haql Obama rəhbərliyində xidmət edən son respublikaçı idi. Ağ Ev bu mövqe üçün dəyişiklik vaxtının gəldiyini ifadə etsə də, pərdə arxasındakı əsl səbəb fərqli idi. Haqlın Obama və Ağ Evdəki yaxın həmkarları ilə xarici siyasət baxımından mühüm fikir ayrılıqları var idi. Milli təhlükəsizliklə əlaqədar Amerikanı maraqlandıran artan təhdidlər, xüsusilə, İŞİD-in yüksəlişi Obamanı başqa bir varianta yəni Pentaqondan bir lider axtarışına yönəltdi. Obama keçmiş müdafiə naziri müavini Aşton Katerin (Ashton Carter) Haqlın xələfi

olduğunu bildirdi. Əlbəttə ki, bu dəyişiklik də Obamaya yönəldilən tənqidlərin qarşısını almaq üçün kifayət etməyəcək, qaldı ki, yeni Müdafiə Nazirinin xarici siyasət baxımından radikal bir dəyişiklik gətirə biləcəyi elə də gözlənilmir.

Müxtəlif uğursuz siyasətlərlə əlaqədar olaraq bütün siyasi sistem əvəzinə sadəcə bir adamı günahlandırmaq yersizdir. Siyasi sistemi bütün olaraq nəzərə almalıyıq. Mövcud siyasi sistem dünyanın bir çox bölgəsində, xüsusilə, Yaxın Şərqdə çıxılmaz vəziyyətə doğru irəliləyir. Qarşıdurmanın yaşanmadığı bir bölgə olduğunu deyə bilmirik və siyasətçilər normal diplomatik kanallar vasitəsilə uyğun bir həll yolu tapacaqları gözlənilmir. Məsələn, Obama bəzi dəyişikliklər etdi, ancaq bunlar amerikalıların, ya da dünyanın gözlədiyi dəyişikliklər olmadığı kimi bu dəyişikliklər ölkə üçün hər hansı müsbət dəyişiklik də gətirmədi.

Sistem mənfəətçiliyə əsaslandığı və həll yolları diplomatiya əvəzinə öldürməyi əsas aldığı müddətcə yeni bir liderlə dəyişikliyin yaranması ümidi  mənasız olacaq. Bu səbəbdən ancaq bir siyasətçini məsul tutmaq məntiqsizlikdir. Siyasətçilər zaman keçdikcə yerlərini yenilərinə verirlər, sadəcə elit cəmiyyətə xidmət edildiyi və kasıb xalqa əhəmiyyət verilmədiyi müddətcə, kim olursa olsun yaxşı bir nəticə və insanların həsrətini çəkdikləri sülh dəyişikliyi gözləyə bilmərik. Siyasətçilərin vədlərini yerinə yetirmələrinin və insanların ümid etdiklərini əldə etmələrinin ilk mərhələsi özlərinə qarşı səmimi olmalarıdır. Həmçinin irq, təhsil, maliyyə quruluşu, ictimai mövqe, uşaq və səhiyyə proqramları və məhkəmə sistemi cəhətdən heç bir ayrı-seçkilik etmədən ölkələri üçün ən yaxşısını etməyə niyət edərək, əxlaq çərçivəsində ağılla hərəkətə keçməlidirlər.

**Adnan Oktarın English Pravda qəzetində nəşr olunan məqaləsi:**

http://english.pravda.ru/world/americas/22-12-2014/129360-obama_hope_change-0/

https://www.harunyahya.info/az/meqaleler/umid-ve-deyisiklik-33067